Mədəniyyət



№50 (1827)
7 iyul 2021
www.medeniyyet.az

# İstanbulda Əbdürrəhim bəy Haqverdiyevin əsəri səhnələşdirilib

İstanbulda fəaliyyət göstərən Türkiyə-Azərbaycan "Vizyon" teatrı yeni tamaşasını təqdim edib. Azərbaycan ədəbiyyatının klassiki Əbdürrəhim bəy Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" pyesi əsasında hazırlanan tamaşa İstanbulun Maltəpə rayonundakı Türkan Saylan Mədəniyyət Mərkəzinin salonunda nümayiş etdirilib.





Səhnə əsəri Əbdürrəhim bəy Haqverdiyevin 150 illiyi münasibətilə hazırlanıb. Bu barədə teatrın koordinator-meneceri Elşad Haqverdi məlumat verib.

Yeni tamaşanın teatrın fəaliyyətinin beşinci ilində ərsəyə gəldiyini diqqətə çatdıran Elşad Haqverdi qeyd edib ki, İstanbulda Türkiyə-Azərbaycan "Vizyon" teatrını yaradanda Qarabağ kimi ağrımız var idi və biz həm də dərdimizi tanıtmaq məqsədilə bu yola çıxdıq: "Düşündük ki, bu yolda teatr ən yaxşı təsir vasitələrindən biridir".

"Vizyon" teatrı Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktyoru Elçin İmanov və Kəmalə Kamal tərəfindən qurulub. Kollektivin hazırladığı ilk tamaşa Firuz Mustafanın "Maneken" əsəri olub. Daha sonra Xocalı soyqırımından bəhs edən "Adsız qadın" ("Cəhənnəmdə 8 gün", soyqırımının dəhşətlərini yaşamış Dürdanə Ağayevanın xatirələri əsasında) tamaşası hazırlanıb.

Teatrın yeni səhnə əsərinin rejissoru sənətşünaslıq doktoru Mine Bayrakeri, ümumi koordinatoru Elçin İmanov, quruluşçu rəssamı Tariyel Əlizadə, musiqi tərtibatçısı Arda Dobrucalı, geyim rəssamı Lətafət Rafiqqızı, xoreoqrafı Rafiz Mehdizadədir.

Layihə barədə danışan Elşad Haqverdi deyib: "Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən bizə Əbdürrəhim bəy Haqverdiyevin Türkiyə türkcəsinə tərcümə olunmuş "Yeyərsən qaz ətini, görərsən ləzzətini" əsərinin ssenarisi göndərildi. Pandemiya səbəbindən teatrlarımızın Ə.Haqverdiyevin 150 illiyini qeyd edə bilməməsini də nəzərə alaraq, bu tamaşaya hazırlaşdıq və teatrsevərlərə təqdim etdik. Tamaşa çox müsbət qarşılandı".

Tamaşadan sonra Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı yaradıcı heyətə təşkilatın təşəkkürnamələrini təqdim edib.

"Kollektivimiz bu tamaşanı Azərbaycanda da təqdim etməyi səbirsizliklə gözləyir. Ən böyük arzumuz isə mədəniyyətimizin beşiyi olan Şuşada bu tamaşamızla çıxış etməkdir", – deyə Elşad Haqverdi bildirib.

"Vizyon" teatrı yay tətilindən sonra Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş tamaşa hazırlamağı da planlaşdırır.